

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 19 (21.680)

27 yanvar 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Said Xan Mohmandın etimadnaməsini qəbul edib.

Said Xan Mohmand etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Pakistan Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin Azərbaycana uğurlu rəsmi səfərlərini və bu səfərlər zamanı keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini və əməkdaşlığımızın ən yüksək səviyyədə olduğunu vurğuladı. Azərbaycan ilə Pakistan arasında ikitərəfli əlaqələrin, beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin, qarşılıqlı dəstəyin məmnunluq doğurduğunu qeyd edən Prezident İlham Əliyev ölkəmizin Pakistan ilə qardaşlıq əlaqələrini bundan sonra da inkişaf etdirməkdə maraqlı olduğunu dedi.

Said Xan Mohmand Pakistan xalqı tərəfindən Azərbaycanın inkişafının bir nümunə kimi qəbul olunduğunu bildirərək bu inkişafda ulu öndər Heydər Əliyevin müstəsna rolunu qeyd etdi və bu uğurlu siyasətin Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini vurğuladı.



## Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının şura iclası keçirilib



Ötən ilin yekunlarının və qarşıda duran vəzifələrin müzakirəsinə həsr edilmiş şura iclasında Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quluyeva məruzə edərək 2016-cı ildə görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb.

Bildirilib ki, təşkilat öz fəaliyyətini ilin əvvəlində təsdiq olunmuş iş planı əsasında qurub. Vaxtlı-vaxtında keçirilən partiya yığıncaqlarında görülən işlərin hesabatı dinlənilib, işin keyfiyyətinin artırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Ərazi ilk təşkilatlarının fəaliyyətinə nəzarət artırılıb, metodik köməkliklər göstərilib.

Qeyd edilib ki, ötən il təşkilatın 4 şura, 12 idarə heyətinin yığıncağı keçirilib. Yığıncaqlarda müxtəlif məsələlər müzakirə edilib. Təşkilat partiya sıralarının genişləndirilməsini diqqət mərkəzində saxlayıb, dövlətçiliyə sadiq əqidəli gənclərin və qadınların partiya sıralarına qəbuluna üstünlük verib. Hazırda təşkilatın əhatə etdiyi 31 ərazi ilk partiya təşkilatının qeydiyyatında 2 min 840 nəfər partiya üzvü vardır. Partiya üzvlərinin 1058 nəfərini, yəni 37 faizini qadınlar, 776 nəfərini, yəni 27 faizini gənclər təşkil edir. Ötən il ərzində Yeni Azərbaycan Partiyası sıralarına 168 nəfər qəbul olunub. Onların 104 nəfərini qadınlar, 116 nəfərini gənclər təşkil edib.

Bildirilib ki, bundan sonra da təşkilati işlər diqqət mərkəzində saxlanılmalı, vətənpərvər, ictimai işlərdə fəal, siyasi cəhətdən yetkin, təşəbbüskar gənclərin və qadınların Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilmələrinə nail olunmalıdır.

Yığıncaqda 2017-ci ildə qarşıda duran vəzifələrdən də danışılıb. Vurğulanıb ki, təşkilatın və partiya üzvlərinin əsas vəzifəsi Yeni Azərbaycan Partiyasının yaradıcısı, müstəqil respublikamızın qurucusu və memarı olan ulu öndərin müəyyənləşdirdiyi siyasətin davam etdirilməsində təşəbbüskarlığı artırmaq, əhali arasında ideya-siyasi işi gücləndirməkdir. Tutduğu vəzifədən asılı olmayaraq hər bir partiya üzvü Proqram və Nizamnamənin tələblərinə, prinsiplərinə əməl etməli, siyasi proseslərdə, rayonda gedən quruculuq-abadlıq işlərində, yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində fəallıq göstərməlidir.

Məruzə ətrafında Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Qadınlar Şurasının üzvü Şamama Əliyevanın, Gənclər Birliyinin sədr müavini Kənan Məmmədovun, ərazi ilk təşkilat sədrləri Yunis Ələkbərov və Ziyafəddin Babayevin çıxışları olub.

***Dünya iqtisadiyyatındakı mövcud vəziyyətə baxmayaraq, sosial-iqtisadi inkişafın mühüm keyfiyyət göstəricisi və regional inkişafın fərqləndirici xüsusiyyətlərindən biri olan əhali gəlirlərinin artırılması Naxçıvan Muxtar Respublikasında ötən il də diqqətdə saxlanılıb.***

## Əhali gəlirlərinin artımı həyat səviyyəsini yüksəldir

Sahibkarlığın inkişafı üçün görülmüş tədbirlər, yeni iş yerlərinin yaradılması, əmək bazarının tənzimlənməsi və səmərəli məşğulluğun təmin olunması sahəsində aparılan siyasət nəticəsində əhali gəlirləri də bazarın səviyyəsinə uyğun olaraq artıb. Belə ki, 2016-cı ildə muxtar respublikada istehsal olunmuş 2 milyard 500 milyon manatdan çox ümumi daxili məhsulun hər bir nəfərə düşən həcmi 5 min 771 manat təşkil edib ki, bu da 2015-ci ilin müvafiq göstəricisinə nisbətən 3,4 faiz çox olub. Ümumi daxili məhsul istehsalının 60 faizə qədərinin real sektorun payına düşməsi burada aparıcı amil kimi özünü göstərir.

Sahibkarlığın inkişafı yeni iş yerlərinin açılmasına və əhali gəlirlərinin artmasına da öz təsirini göstərib. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası nəticəsində 2 min 818 yeni iş yeri açılıb ki, bunun da 98 faizi daimi iş yerləri olub.

Muxtar respublikada yeni iş yerlərinin yaradılmasında ötən il ərzində 47 yeni istehsal və xidmət sahəsinin fəaliyyətə başlamasının, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müraciət etmiş 33 hüquqi və 2173 fiziki şəxsin dövlət qeydiyyatına alınmasının, sahibkarlığın inkişafı məqsədilə 17 milyon manatdan çox kredit verilməsinin mühüm rolu olub.

## Naxçıvan Günəş Elektrik Stansiyasının istehsal gücü artırılacaq



***Əlverişli coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada ekoloji cəhətdən təmiz, tükənməyən alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin davamı kimi 2015-ci ilin dekabr ayında Babək rayonunun Xal-xal kəndi yaxınlığında 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilib.***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il yanvar ayının 11-də muxtar respublikamıza səfəri çərçivəsində təməli qoyulan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasında işlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyindən bildirilib ki, muxtar respublikanın təbii resurslarından səmərəli istifadə olunmaqla yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Belə ki, 14 meqavat gücündə Tivi Su Elektrik Stansiyasının texniki-iqtisadi əsaslandırılması və ilkin layihə sənədləri hazırlanıb. 2017-ci ildə Günəş elektrik stansiyasının gücü 2 meqavat artırılacaqdır. Bunun üçün xarici şirkətlə müqavilə bağlanıb, işlərə başlanılıb. Cari ilin iyul ayında işlərin yekunlaşdırılması nəzərdə tutulub.

Araz Su Elektrik Stansiyasında 2 nömrəli turbinin əsaslı təmiri, Modul Elektrik Stansiyasında isə 4 aqreqatın 48 min saatlıq işləmədən sonra planlı təmiri həyata keçiriləcəkdir.

Culfa rayonunda külək elektrik stansiyasının tikintisi üçün ötən il ölçü qurğuları alınıb və quraşdırılıb. Bir il ölçü aparıldıqdan sonra bu ilin avqust ayında həmin ərazidə hansı gücdə və sayda külək enerjisi qurğuları qoyulmasının əsaslandırılması mümkün olacaqdır.

Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının su və digər alternativ elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi hesabına 100 faiz ödənilməsi mümkün olacaq və yaxın gələcəkdə Naxçıvan daha çox elektrik enerjisi ixrac edəcəkdir.

***Sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması, iqtisadiyyatın davamlı və tarazlı inkişafının təmin edilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir.***

## Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi öz bəhrələrini verir

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində sahibkarlığın inkişafı sahəsində mühüm nailiyyətlər əldə edilib. Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması, sahibkarların problemlərinin həlli, onlara dövlət maliyyə dəstəyinin göstərilməsi məqsədilə ötən il fevral ayının 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla görüşü keçirilib. Belə görüşlər muxtar respublikada sahibkarlığın inkişafında yeni mərhələnin əsasını qoyub.

Məlumatda deyilir ki, muxtar respublikada iqtisadiyyatın bütün sahələrində müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkanlar yaradılıb, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırılıb. 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondunun investisiya xərcləri 15 milyon 69 min manat olub. Daxil olan vəsaitdən müxtəlif sənaye məhsulu yönümlü 7 layihənin maliyyələşdirilməsinə 10 milyon 803 min manat, kənd təsərrüfatı məhsulları istehsalı, o cümlədən heyvandarlıq, balıqçılıq, quşçuluq, soyuducu anbar və istixana komplekslərinin inkişafı yönümlü 16 layihənin maliyyələşdirilməsinə 989 min 700 manat, xidmət sahəsinin inkişafı yönümlü 2 layihənin maliyyələşdirilməsinə 3 milyon 276 min manat xərclənib. Bununla da, muxtar respublika üzrə 2000-ci ildən ötən müddət ərzində fond tərəfindən 1219 layihənin maliyyələşdirilməsinə 134 milyon 204 min manatdan çox vəsait yönəldilib.

Məlumatda o da bildirilir ki, bəhs olunan dövrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müraciət edənlərin sayı xeyli artıb. 33 hüquqi və 2173 fiziki şəxs dövlət qeydiyyatına alınıb. Bank və kredit təşkilatları tərəfindən sahibkarlığın inkişafı məqsədilə 17 milyon manatdan çox kredit verilib.

Həyata keçirilən tədbirlər bəhrələrini verib. Belə ki, 2016-cı ildə daha 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb. Ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi 87 faizi keçib. Sevindirici haldır ki, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi hesabına hazırda muxtar respublikada 366 növdə məhsul istehsal olunur. Bu məhsulların 120 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. İstehsal olunan məhsulların daxili bazarda dövriyyəsini təmin etmək və onların ixrac potensialını artırmaq məqsədilə "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb.

Bütün bunlar regionda iqtisadiyyatın hər bir sahəsində inkişafa nail olunmasının göstəriciləri, uzaqgörənliklə müəyyənləşdirilmiş inkişaf strategiyasının nəticələridir.

**Xəbərlər şöbəsi**

# AMEA Naxçıvan Bölməsinin muzeyinə yeni eksponatlar təqdim olunub

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qədim tarixə malik eksponatlar – Zoğala yaşayış yerindən tapılmış qolbaq və medalyon AMEA Naxçıvan Bölməsinin muzeyinə hədiyyə olunub.*

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, bu gün Naxçıvanda 29 muzey fəaliyyət göstərir. Həmin mədəniyyət müəssisələrində xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən 112 mindən çox maddi-mədəniyyət nümunələri qorunub saxlanılır. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tariximizin və mədəniyyətimizin yaşadılması istiqamətində işini günün tələbləri səviyyəsində qurmağa çalışır. Nazirlik tərəfindən muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi diqqətdə saxlanılır və bu işdə muxtar respublika sakinləri yaxından iştirak edirlər. 2016-cı il ərzində muzeylərə 1500-ə yaxın yeni eksponat daxil olub ki, bu eksponatlar da muzeylərə hədiyyə edilib. Muzeylərə hədiyyə olunan eksponatların nazirlik tərəfindən təqdimatı keçirilib.



Natəvan Qədimova maddi-mədəniyyət nümunələrinin toplanması işində səy göstərən Babək rayon Nehrəm kənd sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyevə minnətdarlığını bildirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək deyib ki, artıq 14-cü ildir fəaliyyət göstərən AMEA Naxçıvan Bölməsi elmi tədqiqatlarla yanaşı, maddi-mədəniyyət nümunələrinin aşkarlanması ilə də məşğul olur. Aşkar edilən eksponatlar profillərinə uyğun olaraq müxtəlif muzeylərə hədiyyə edilir, bəziləri isə bölmənin muzeyində saxlanılır.

Bölmə sədri onu da diqqətə çatdırıb ki, bəzi vətəndaşlar qədim əşyaları muzeylərə təqdim etməkdə laqeydlik göstərirlər, onları evlərində saxlayırlar. Bilmək lazımdır ki, evdə saxlanılmaqla onlar təbliğ olunmur. Lakin muzeylərə təqdim olunan eksponatlar həm təbliğ edilir, həm də lazımi şəkildə qorunur.

İsmayıl Hacıyev AMEA Naxçıvan Bölməsinin muzeyinə hədiyyə olunan eksponatlara görə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinə və Akif Hacıyevə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev çıxışında deyib ki, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında Naxçıvan həmişə böyük rol oynayıb. Bu qədim diyarda ərsəyə gətirilən bir sıra xalq sənəti nümunələri Naxçıvanın şöhrətini dünyaya yayıb. Naxçıvanlı ustanın yaratdığı dolça bu gün "Luvr" muzeyində saxlanılaraq görənləri heyrətə salır. Buna görə də biz muzey işçilərinin, həmçinin vətəndaşların qarşısında mühüm vəzifələr dayanır. Biz qədim tarixə malik olan, dədə-babalarımızın bizə yadigar qoyub getdikləri sənət nümunələrini, arxeoloji materialları, numizmatik əşyaları, ümumiyyətlə, tarixi əhəmiyyətli nə varsa, toplayıb muzeylərə təqdim etməliyik. Mən də, öz növbəmdə, çalışıram ki, bu işdə əlimdən gələni əsirgəməyim. Hazırda eksponat toplanması işini davam etdirirəm. Sevindirici haldır ki, muzeylərə verilən eksponatların təqdimat mərasimlərinin keçirilməsindən sonra muxtar respublikanın bütün rayonlarından bizə qoşulan insanlar var. İnsanlar dərk edirlər ki, tarixi əhəmiyyətli bir əşyanı evdə saxlamaqla o məhv olur, lakin onlar muzeydə qorunub saxlanılır və gələcək nəsillərə ötürülür.

Akif Hacıyev deyib ki, tarixi eksponatlar xalqın milli sərvətidir. Onları qoruyub gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcuna çevrilməlidir.

Sonda AMEA Naxçıvan Bölməsinə hədiyyə edilmiş eksponatlar təqdim olunub.

**Fatma BABAYEVA**

---

# Naxtel 4G gələcəyə doğru

***Sürət, komfort, təhlükəsizlik və prestij. Bütün bunlar müasir insanların hər gün istifadə etdiyi xidmətlərin əsas göstəriciləri, cəmiyyətin müasirləşməsinin, sosial həyatın yaxşılaşmasının mühüm şərtlərindəndir. İqtisadi fəallığı artıran sürətli və rahat rabitə xidmətləri bu baxımdan ümumi inkişafımızın nəticəsi və onun əsas amillərindən biridir.***

XX əsrin mühüm yeniliklərindən biri olan internet və mobil rabitə xidmətləri cəmiyyət həyatında köklü dəyişikliklərə səbəb olmaqla, iqtisadiyyatın digər sahələrində də yeni yüksəlişə stimul verib. Yüksək texnologiyaların fərdi istifadəyə qədər genişlənib yayılması bir zamanlar əlçatmaz kimi görünən xəyalları real etməklə, insan həyatının bütün sahələrində – evdə, işdə, səyahətdə tətbiq oluna biləcək yeniliklərin sonsuz olacağını da sübut etdi. Ötən ilin payızında muxtar respublikamızda 4-cü nəsil mobil rabitə xidmətlərinin istifadəyə verilməsi və naxçıvanlıların bu müasir xidmət növünə böyük marağı bir daha göstərdi ki, gələcək inkişafa doğru atılan hər bir addım həmişə təqdir olunur, cəmiyyətin bütün təbəqələri tərəfindən rəğbətlə qarşılanır.

Naxtel və ya rəsmi əmtəə nişanı ilə desək, Naxtel 4G ölkəmizdə fəaliyyət göstərən ən yeni mobil rabitə operatoru kimi bu sahədəki işinə bir çox yeniliklərlə başlayıb. Belə ki, Naxtel Naxçıvan Muxtar Respublikası ərazisində quraşdırılmış 98 baza stansiyası ilə muxtar respublikamızın, demək olar ki, bütün ərazisində yüksəkkeyfiyyətli mobil rabitə xidmətləri göstərir. Bunun sayəsində muxtar respublika əhalisinin bir qisminin indiyə qədər istifadə etdiyi mobil internetin sürəti 10 dəfə artıb. Ona görə bir qismi deyirik ki, indiyə qədər Naxçıvan Muxtar Respublikasının yalnız paytaxtı və ona yaxın ərazilərində, rayon mərkəzləri ilə onlara yaxın iri yaşayış məntəqələrində digər operatorların 3G mobil şəbəkəsindən istifadə mümkün idi. Öz fəaliyyətində kommersiya maraqlarını deyil, müştəri məmnuniyyətini, muxtar respublikanın hətta ən ucqar kiçik dağ kəndləri əhalisinin tələbatlarının ödənilməsini əsas tutan Naxtelin yaradılması bu baxımdan mühüm sosial-iqtisadi əhəmiyyətli hadisədir.




Naxtel 4G geniş texniki imkanlarla mühüm yeniliklərə malikdir. Bu yeniliklər barəsində oxucularımıza məlumat verməyini xahiş etdiyimiz "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin Marketinq, rominq və mühasibatlıq şöbəsinin müdiri Elgün İbrahimov bildirdi ki, 2016-cı ilin oktyabr ayında fəaliyyətə başlayan Naxtel 4G mobil rabitə xidmətlərinə çox sayda yeniliklər gətirib. Naxtelin məqsədi müasir, yeni nəsil texnologiyalardan istifadə etməklə vətəndaşlara yüksəkkeyfiyyətli mobil xidmətlər təqdim etmək, işgüzar fəaliyyətə töhfə verməkdir. Artıq ötən qısa müddət ərzində abunəçilərimizin sayı 10 mini ötüb. Təklif etdiyimiz xidmətlərə göstərilən böyük maraqdır ki, hər gün orta hesabla 150-200 nəfər Naxtel abunəçiləri sırasına qoşulur. Bu mənada, yeni il ərəfəsindən başlatdığımız kampaniyaları da xüsusilə qeyd etmək olar. Belə ki, Naxtelə qoşulan hər yeni abunəçiyə 100 dəqiqə şəbəkədaxili danışıq və 2 Gb internet, habelə Naxteldən yeni nömrə və bir ədəd 50 manatlıq ödəmə kartı alana Huawei Y221 mobil telefonu hədiyyə edən kampaniyalar qısa müddətdə populyarlıq qazanıb.

Yaradıldığı gündən "Gələcəyə doğru" şüarı ilə işə başlayan "Naxtel" MMC qısa zamanda öz fəaliyyət coğrafiyasını genişləndirib. Əhalidən artan tələbi ödəmək məqsədilə Naxçıvan şəhərində bir neçə yerdə, muxtar respublikanın bütün rayon mərkəzlərində, habelə hər rayonun 10-a yaxın kəndində mobil rabitə istifadəçilərinə yüksəkkeyfiyyətli Naxtel 4G xidmətləri göstərilməsi üçün lazımi şərait yaradılıb. İqtisadi və sosial inkişaf baxımından mühüm şərt olan bölgələrdə yeni iş yerlərinin yaradılmasında da bu müəssisənin payı böyükdür. Belə ki, Naxtelin bütün idarəetmə, satış və texniki xidmət və sair strukturları üzrə xeyli sayda muxtar respublika sakini daimi işlə təmin olunub. Müasir telekommunikasiya xidmətlərinin əsas tələblərindən biri olan gülərüz xidmət, yüksək peşəkarlıq və dəqiqlik Naxtel işçilərinin mənimsədiyi əsas keyfiyyətlərdəndir. Müasir istehlakçının, xüsusən telekommunikasiya xidmətləri istehlakçılarının bu sahədəki yüksək həssaslığını nəzərə alan Naxtel öz müştəriləri ilə iş prosesində bütün mütərəqqi üsul




və vasitələrdən istifadə edir. İnternet istifadəçilərinin Azərbaycan, ingilis və rus dillərində hər cür lazımi informasiya ala biləcəyi *www.naxtel.az* saytında Naxtel abunəçiləri burada tarif seçimindən kampaniyalardan faydalanmağa, onlayn ödəmədən rominq xidmətlərinə, toplu SMS xidmətlərindən GPS monitorinq xidmətlərinə qədər bütün məlumatları onlayn qaydada əldə edə, saytdakı canlı dəstək bölümündən Naxtel 4G operatoru ilə birbaşa əlaqə saxlayaraq onları maraqlandıran suallara cavab ala bilərlər. Müştərilərlə effektiv və operativ əlaqə qurulması məqsədilə sosial şəbəkələr vasitəsilə də Naxtellə abunəçilər arasında etibarlı əməkdaşlıq təmin olunub. Saytda yerləşdirilmiş keçidlər vasitəsilə istənilən Facebook, Twitter, İnstagram və YouTube istifadəçisinin Naxtel xidmətləri ilə tanış olmaq, bunlar haqqında çox sürətli və dəqiq məlumat almaq imkanları vardır. Eyni zamanda 299 nömrəli məlumat xidməti vasitəsilə müştərilər Naxtel 4G xidmətləri haqqında ətraflı məlumat ala bilərlər.

"Naxtel" MMC-nin təklif etdiyi xidmətlərdən biri olan GPS monitorinq müasir telekommunikasiyanın ən yeni nailiyyətlərinin iqtisadiyyatdakı tətbiqi nümunəsidir. Belə ki, bu texnologiyanın tətbiqi ilə nəqliyyat vasitələrinin hərəkətini izləmək, təhlükəsizliyə nail olmaq, yanacaq xərclərinə qənaət etmək, əmək intizamına, texnikanın istismarına nəzarəti gücləndirmək mümkündür. Naxtelin təklif etdiyi GPS monitorinq avadanlıqları quraşdırılmış nəqliyyat vasitələrinin marşrutlar boyu yollarda və dayanacaqlarda boş vaxt itirməsi, müəyyən olunmuş qrafikdən kənara çıxması, aid olduğu müəssisəyə iqtisadi zərər vurması və sərnişinlərə yarıtmaz xidmət göstərməsi halları da tamamən azalır.




Naxtel uğurlu iqtisadi layihə kimi, eyni zamanda geniş sosial məsuliyyət nümayiş etdirir. Abunəçilərə seçim imkanlarında geniş sərbəstlik verilməsi, korporativ müştərilər üçün ən müxtəlif variantlarda sərfəli zəng, SMS və internet xidmətlərinin təklifi, əhalinin az gəlirli, ancaq ən fəal internet istifadəçisi təbəqəsi olan tələbələr üçün xüsusi tarif planının təqdimi Naxtelin sosial əməkdaşlıqda açıq xətt izlədiyini göstərir. Belə ki, Naxteldən nömrə alan tələbələr bir dəqiqəlik tarifdaxili zənglər üçün cəmi 1 qəpik, şəbəkədaxili zənglər üçün 2 qəpik, digər istiqamətlərə zənglər üçün 4 qəpik, internetin 1 meqabaytı üçün isə 1 qəpik ödəməklə xidmətlərdən rahatca istifadə edə bilirlər. Eyni güzəştli xidmətlər digər ön ödəməli tariflər olan Arzu paketi (500 dəqiqə, 500 SMS və 4 Gb internet bonusu) və Sadə paketdə də (şəbəkədaxili zənglər üçün 2 qəpik və 2 Gb internet bonusu) vardır. Mobil xidmətlərdən çox istifadə edənlər üçün təklif olunan fakturalı xətlər olan Elit paketdə tarifdaxili zənglər üçün 1 qəpik və bonus olaraq 5Gb internet müəyyən olunub. Abunəçilər üçün tarifdaxili zənglərin ay ərzində tamamən pulsuz olduğu, ayrıca bonus olaraq 1000 dəqiqə, 1000 SMS və 8 Gb internetin təqdim edildiyi Xəyal paketi isə, sözün əsl mənasında, müasir işgüzar mobil rabitə istifadəçilərinin xəyallarını reallığa çevirən bir seçimdir. Öz abunəçilərinə danışıq dəqiqələrini və interneti az qala qram-qram verən bəzi operatorlardan fərqli olaraq Naxtelin tarif planları müştərilər üçün çox cazibədar olub, hər bir vətəndaşın büdcəsinə uyğun, iqtisadi cəhətdən sərfəlidir.

***Gənc mütəxəssislə qısa söhbətdən yaxşı təəssürat almışdım. Ofisdən ayrılarkən, ondan müəssisənin xidmətləri haqqında hazırladığı məlumatları elektron poçtuma göndərməyi xahiş etdiyimdə, o, iş masasındakı kompüterin düyməsini sıxdı. Tək toxunuşla onun göndərdiyi informasiya mənim smartfonuma çatmışdı artıq. Gülümsəyərək, – sizdə də yəqin Naxtel 4G-dir, – deyə soruşdu. Cavabımda, – bəli, yeni il ərəfəsində Naxteldən yeni nömrə almışam. İndi mən də 4G istifadəçisiyəm. Artıq bütün rabitə işlərim daha sürətli və rahatdır, – dedim.***

**Əli CABBAROV**

# Peşə təhsili günün tələbidir

## Ötən il peşə məktəblərini bitirənlərin əksəriyyəti işlə təmin edilib

***Peşə təhsilli insanlar müasir dövrdə istənilən ölkə üçün ən mühüm kapitaldır. Çünki həyatımızın müxtəlif sahələrində çalışan çoxsaylı işçi kollektivlərinin əsasını məhz bu cür insanlar təşkil edir. Təcrübə də sübut edir ki, peşə təhsilinə yiyələnmədən iqtisadiyyatın müxtəlif sahələrini, o cümlədən sənaye və kənd təsərrüfatını, tikinti və nəqliyyat sektorunu, yüzlərlə məişət xidməti sahələrini inkişaf etdirmək mümkün deyil. Unutmaq olmaz ki, kökü iqtisadi amilə bağlı istənilən sahənin inkişafı ali təhsilli kadrlarla yanaşı, həm də müxtəlif peşə təhsili almış ixtisaslı kadrlardan asılıdır. Bu baxımdan inkişaf etmiş ölkələrdə peşə təhsilinə yönəldilən investisiyaların həcmi ciddi rəqəmlərlə ifadə olunur. Ölkəmizdə də peşə təhsilinin inkişafı özünəməxsus yol keçib.***



Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə atılan addımlar texniki peşə təhsilində ciddi nailiyyətlər qazanılmasına imkan verib, eyni zamanda peşə təhsili şəbəkəsinin genişləndirilməsinə nail olunub. Belə ki, hazırda muxtar respublikada Naxçıvan, Şərur və Ordubad texniki peşə və sürücülük məktəbləri, Naxçıvan Şəhər Peşə Liseyi, Regional Peşə-Tədris Mərkəzi kimi peşə təhsili verən müəssisələr fəaliyyət göstərir. Bu yazıda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə məktəblərindən bəhs edəcəyik.

Əvvəlcə qeyd edək ki, adıçəkilən nazirliyin tabeliyində olan Naxçıvan, Şərur və Ordubad texniki peşə və sürücülük məktəbləri və Naxçıvan Şəhər Peşə Liseyi muxtar respublikada aparılan quruculuq tədbirlərindən öz payını alaraq müasir tələblərə cavab verən yeni binalarda fəaliyyət göstərir.

İlk üz tutduğumuz ünvan Naxçıvan Şəhər Peşə Liseyi oldu. Liseydə təhsil üçün hərtərəfli şərait yaradılıb. Müdavimlər burada müxtəlif peşələr üzrə təhsil alırlar. Burada olarkən öyrəndik ki, 2016-cı ildə liseydə illik qruplarda qadın bərbəri, manikürçü peşəsi üzrə 12, traktorçu-maşinist üzrə 9, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru üzrə 9, elektrik qaz qaynaqçısı üzrə 8, arıçı peşəsi üzrə 8 nəfər olmaqla, 46 müdavim, aylıq qruplarda isə traktorçu-maşinist peşəsi üzrə 17, bərbər manikürçü peşəsi üzrə 18, qazanxana maşinisti peşəsi üzrə 83, dayə peşəsi üzrə isə 30 müdavim olmaqla, ümumilikdə, 194 müdavim təhsilini başa vurmaqla müvafiq təhsil sənədlərini alıb. Liseyin müasir tələblərə cavab verən maddi-texniki bazaya malik olması müdavimlərə mənimsədikləri peşəyə praktik baxımdan yiyələnməsi üçün geniş imkanlar açır. Liseyi ötən il bitirmiş müdavimlərdən bir neçəsi ilə işlədikləri müəssisələrdə görüşüb söhbət etdik.

Fazil Qulamov 2016-cı ildə Naxçıvan Şəhər Peşə Liseyində qazanxana maşinisti peşəsinə yiyələnib. Onun dediklərindən: “2016-cı ildə Naxçıvan Şəhər Peşə Liseyindən məzun oldum. Qrupumuzda bu peşə üzrə təhsil alanlar çox idi. Qeyd edim ki, qazanxanada işləmək üçün əvvəlcədən təcrübəm olsa da, bu sahə üzrə təhsil almağım mənə çox şey öyrətdi. Müəllimlərimiz sağ olsunlar, öz bilik və təcrübələrini bizə yetərincə öyrətməyə çalışırdılar. Hazırda Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə qazanxana maşinisti vəzifəsində işləyirəm. Çalışıram ki, öyrəndiklərimi gündəlik işimdə lazımınca tətbiq edim. Biz peşə sahiblərinə yaradılan şəraitə görə dövlətimizə minnətdaram”.

Digər həmsöhbətimiz Nuranə Həsənova ilə Naxçıvan şəhərindəki 5 nömrəli uşaq bağçasında görüşdük. 2016-cı ildə peşə liseyində dayə peşəsinə yiyələnən müsahibimiz bildirdi ki, liseydə oxuduğu müddətdə hərtərəfli qayğı ilə təmin olunublar. Kurslarda onlara gələcəyimiz olan uşaqlarla necə işləməyin incəlikləri öyrədilib, dayə peşəsinin sadə bir peşə olmadığı diqqətə çatdırılıb. Gələcəyimiz olan azyaşlı uşaqlarla işləmək dayədən səbir, gülərüzlülük, nəvaziş və mehribanlıq tələb edir. Uşaqlarla işləməyin maraqlı olduğunu deyən Nuranə Həsənova onu da bildirdi ki, dayə peşəsinə yiyələnmək həm də uşaq psixologiyasını düzgün qavramaqdan keçir. Nəzərə alaq ki, bəzən





uşaqlar valideynlərindən daha çox bizimlə təmasda olurlar. Onların həyata ilk baxışı bağçalarda formalaşır. Buna görə də dayələrimizin hərtərəfli hazırlığı valideyn kimi hər birimizi maraqlandırır. Sevinirik ki, bu gün peşə təhsili müəssisələrində dayə peşəsi üzrə lazımi təhsil verilir və belə bir şəraitin yaradılmasına görə dövlətimizə minnətdaram.

Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi isə nəinki muxtar respublikamızda, hətta ölkəmizdə yüksək şəraitə və maddi-texniki təchizata malik olan məktəblərdən biridir. Məktəbdə 4 elektron lövhəli sinif, 2 metodik kabinə, 2 avtotrenajor sinfi var. Sinif otaqları lazımi avadanlıqlarla təchiz edilib, kompüterlər internetə qoşulub. Yaradılan şərait məktəbdə təhsil alan müdavimlərin sürücülük və texniki peşələrə yiyələnməsinə, yol hərəkəti qaydalarının dərindən mənimsənilməsinə imkan verir. Təbii ki, belə təhsil şəraiti nəqliyyat vasitələrindən düzgün istifadəyə və yol hərəkətinin təhlükəsizliyinə təminatdır. İki mərtəbədən ibarət olan binada 23 sinif otağı vardır. Binanın birinci mərtəbəsində sənədlərin qəbulu otağı, tibb məntəqəsi, anbar, iş otaqları, kombayn və traktorların quruluşu, avtomobillərin quruluşu və istismarı, təcrübə-məşğələ və avtotrenajor sinifləri yerləşir. Sinif otaqlarında nəzəri dərslərin keçilməsi üçün yüksək şərait yaradılıb, məlumat stendləri, müxtəlif avtomobil və kənd təsərrüfatı texnikalarının hissələri qoyulub. Sözsüz ki, bütün bunlar keçilən dərslərin praktik olaraq daha yaxşı mənimsənilməsini, kənd təsərrüfatı texnikaları üzrə bacarıqlı mütəxəssislərin hazırlanmasını şərtləndirən başlıca amillərdir. Sürücülük peşəsinə yiyələnmək istəyənlər avtotrenajor siniflərində avtomobillərin idarə olunmasını praktik olaraq mənimsəyirlər. Avtotrenajorlardan biri yük, digəri isə minik maşını tiplidir. Bu avtotrenajorlar ölkəmizdə ilk dəfə olaraq Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində tətbiq olunub. Avtomobil ilə eyni sistemə malik kabinədən ibarət olan avtotrenajorlarda müxtəlif yol şəraitinə və sürət həddinə uyğun təlimlər keçirilir və sürmənin nəticələri avtomatik olaraq kompüter idarəetmə sisteminə göndərilir. Təlimlərin səmərəli təşkili və müdavimlərin yüksək səviyyədə hazırlanması gələcəkdə baş verə biləcək yol-nəqliyyat hadisələrinin ilkin mərhələdə qarşısının alınması və avtonəqliyyat vasitələrindən düzgün istifadə baxımından əhəmiyyətlidir. Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbinin yataqxanası və yürüş-təlim meydançası da müasir tələblər səviyyəsindədir. Məktəb kompleksində yataqxana binasının yaradılması təhsil alanların rahatlığı baxımından əhəmiyyətlidir. Bu, tədrisin keyfiyyətinin yüksəldilməsinə və davamiyyətin təmin olunmasına imkan verir. Təlim meydançasında yol hərəkəti qaydalarına və müxtəlif yol nişanlarının tələblərinə əməl etməklə avtomobillərin idarə edilməsi praktik olaraq öyrədilir, müdavimlər əyani sürmə vərdişlərinə yiyələnirlər. 2016-cı ildə məktəbdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən göndərilmiş “BC” kateqoriyalı sürücülük qruplarında 294, “B”, “BC”, “D” və “E” kateqoriyalı sürücülük qruplarında isə 1206 müdavim olmaqla, ümumilikdə, 1500 müdavim təhsil alıb.

Şərur Texniki Peşə və Sürücülük Məktəbi də ötən ili uğurla başa vurub. 2016-cı ildə burada təkcə sürücülük deyil, digər texniki peşələr üzrə də kurslar təşkil olunub. Məktəbdə olarkən öyrəndik ki, burada Şərur rayonu ilə yanaşı, Sədərək və Kəngərli rayonlarından gəlmiş müdavimlər də təhsil alır. Ötən il məktəbi “B” kateqoriyalı sürücü peşəsi üzrə 337 müdavim, xalçaçı qrupu üzrə 10, kəndin elektrikləşdirilməsi və rabitəsi üzrə elektrik montyoru qrupu üzrə 17, bağban qrupu üzrə 11, əməliyyatçı mühasib qrupu üzrə 20, dərzi qrupu üzrə 23, qazanxana maşinisti kursu üzrə 83, kompüter istifadəçisi kursu üzrə 15, bərbər kursu üzrə 13, bərbər manikürçü kursu üzrə 17, ixtisasartırma kurslarından dayə kursu üzrə 20, gözətçi kursu üzrə 20 nəfər olmaqla, ümumilikdə, 586 müdavim bitirib.

Məktəbdən məzun olan müdavimlərdən biri Kosacan kənd sakini 16 yaşlı İsmayıl Tağıyevdir. Hazırda Şərur rayonunun Arbatan kəndindəki xidmət mərkəzində dərzi işləyir. Onun dediklərindən: “Dərzi peşəsinə uşaq yaşlarından marağım vardı. Ona görə də bu sahə üzrə təhsil almağa qərar verdim. Şərur Texniki Peşə və Sürücülük Məktəbi ilə əlaqə saxladım, sonra sənədlərimi hazırlayıb burada oxumağa başladım. Məktəbdə bizi yaxşı öyrətdilər. Qrupumuzda rayonumun müxtəlif kəndlərindən, Şərur şəhərindən olan müdavimlər vardı. Kursu bitirdikdən sonra Arbatan kəndində yeni kənd və xidmət mərkəzi istifadəyə verildi. Mən də xidmət mərkəzində işlə təmin olundum. Burada mənim üçün yer ayrılıb. Sevinirəm ki, bu kursu bitirdim, dərzi peşəsi ilə bağlı müəyyən biliklər əldə etdim. İndi həm Arbatan kəndindən, həm də öz kəndimizdən müştərilər müraciət edirlər. Kimisi paltar tikdirir, kimisi evdə əşyalar üçün örtüklər sifariş edir. Bu sahədə hələlik tam təcrübə qazanmasam da, bu peşəyə hər zaman insanların ehtiyacı olduğunu düşünürəm. Dövlətimizə minnətdaram ki, həm təhsil almağımız, həm də işləməyimiz üçün lazımi şərait yaradıb”.

Röyal Ələkbərov isə Kürkənd sakinidir. O, ötən il adıçəkilən məktəbdə bərbər peşəsi üzrə təhsil alıb. Hazırda kənddəki xidmət mərkəzində bərbər kimi fəaliyyət göstərir: “Bir müddət həvəskar bərbər kimi fəaliyyət göstərmişəm. Ötən il isə Şərur şəhərindəki texniki peşə və sürücülük məktəbində bərbər kurslarına yazıldım. Bu işin incəliklərini öyrəndik. Oxuduğumuz müddətdə də öz işimizi praktik olaraq yerinə yetirdik. Bunun üçün məktəbimizdə hərtərəfli şərait vardı. İndi isə kəndimizdəki xidmət mərkəzində çalışıram. Kəndimizdə yaradılmış bu şəraitə görə dövlətimizə minnətdaram”.

Şərur Texniki Peşə və Sürücülük Məktəbində olarkən öyrəndik ki, müxtəlif peşələr üçün məktəbə müraciət edənlər də az deyil. Məsələn, hazırda sürücülük peşəsi üzrə 641 nəfər, rabitə montyoru peşəsi üzrə 35 nəfər, qazanxana maşinisti peşəsi üzrə 15 nəfər, traktorçu-maşinist peşəsi üzrə 23 nəfər, aşpaz köməkçisi peşəsi üzrə 17 nəfər və digər peşələr üzrə onlarla müraciətlər qəbul olunub. Bu baxımdan il ərzində müxtəlif peşələr üzrə kursların təşkili təmin olunacaqdır.

Ordubad Texniki Peşə və Sürücülük Məktəb Kompleksi də muxtar respublikamızda öz dəstxətti ilə seçilən peşə təhsili müəssisələrindəndir. 2016-cı il mayın 5-də istifadəyə verilən məktəbdə mükəmməl peşə təhsili üçün hərtərəfli şərait yaradılıb. Əsasən Ordubad və Culfa rayonlarından məktəbə müraciət edənlər burada müxtəlif peşələrə yiyələnə bilirlər. Məktəbin direktoru Nicat Rzayev bizimlə söhbətində bildirdi ki, ötən il məktəbi sürücü, çörək və qənnadı məmulatları ustası, biçici, əməliyyatçı mühasib, qazanxana maşinisti, bədii tikmə ustası, turizm agenti, xalçaçı və digər peşələr üzrə, ümumilikdə, 588 nəfər bitirib. Müsahibimiz məktəbi bitirmiş məzunlardan əksəriyyətinin öz peşəsi üzrə işlədiyini dedi. Həmin məzunlardan hazırda Ordubad Rayon Texniki Yaradıcılıq Mərkəzində “Bacarıqlı əllər” dərnəyinin müəllimi, xalçaçı Vəcihə Tağıyeva, Ordubad Rayon Rabitə İdarəsində rabitə montyoru olaraq işləyən Səməd Əsədov bizimlə söhbətlərində məktəbdə onlar üçün yaradılmış şəraitdən razılıqla danışdılar, muxtar respublikamızda bu sahəyə göstərilən dövlət qayğısını minnətdarlıqla dilə gətirdilər.

Biz isə, öz növbəmizdə, bizimlə həmsöhbət olan bütün müsahiblərimizə işlərində uğurlar arzulayıb, olduğumuz peşə təhsili müəssisələrinin ötənilki nəticələrini oxucularımızla bölüşməyə çalışdıq. Ümumi gəldiyimiz qənaət isə belə oldu ki, peşə təhsili müəssisələrinə göstərilən dövlət qayğısı bu gün muxtar respublikamızda peşə təhsilli kadrlara olan ehtiyacın ödənilməsinə mühüm töhfə verir. Daxili bazarın tələblərinə uyğun hazırlanan bu kadrlar həm də regionumuzun dayanıqlı inkişafına şərait yaradır.









*Bu mənada, peşə təhsili artıq müasir dövrdə günün tələbinə çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi:* ***“Peşəkar kadrlar yalnız ali və orta ixtisas təhsili müəssisələrində hazırlanmır. Bu məsələdə peşə təhsilinin düzgün təşkili də mühüm əhəmiyyətə malikdir. Muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırıb. Bu səbəbdən son illər peşə təhsilinin məzmunu tamamilə yeniləşib, peşə tədrisi müəssisələrinin maddi-texniki bazası gücləndirilib. İqtisadiyyatın çoxşaxəli inkişafı, yeni peşə və sənət sahələrinin yaranması özü ilə bərabər, ixtisaslı kadrlara olan tələbatı da artırır. Artıq müasir dövrdə peşə təhsili günün tələbinə çevrilib”.***

**Səbuhi HƏSƏNOV**






## Fasiləsiz yağan qar muxtar respublikanın gündəlik həyatında heç bir çətinlik yaratmayıb

Son günlər Naxçıvana yağan qar küçə və prospektlərin, yaşayış massivlərinin, park və xiyabanların görkəmini tamamilə dəyişib. Aidiyyəti qurumların bu prosesə hazır olması qarşıya çıxan çətinliklərin qısa zamanda aradan qaldırılmasını mümkün edib. Qısa vaxt ərzində yollar qardan təmizlənib, nəqliyyatın hərəkətində fasilələr yarada biləcək amillər aradan qaldırılıb. Bunun nəticəsidir ki, dünən səhər saatlarında yola çıxan insanlar mənzil başına vaxtında çata biliblər.

Yağan qar enerji və təbii qazın verilişində də fasilələr yaratmayıb. Bu da onunla bağlıdır ki, sözügedən sahələrə cavabdeh olan qurumlar qış mövsümünə ciddi hazırlıq işləri görüblər.

Ümumiyyətlə, qarlı-şaxtalı günlərdə muxtar respublika sakinləri daha çox ehtiyac duyulan kommunal xidmətlər sarıdan heç bir problemlə qarşılaşmayıblar. Bir sözlə, aramsız yağan qar muxtar respublika sakinlərini yeni qayğılarla, çətinliklə yox, bənzərsiz qar mənzərələri ilə qarşılaşdırıb, insanlara xoş əhval-ruhiyyə bəxş edib.

Naxçıvan Muxtar Respublikasının dağlıq ərazilərində yerləşən yaşayış məntəqələrinə aparan yollar da tamamilə qardan təmizlənib, nəqliyyatın fasiləsiz hərəkəti təmin edilib.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeorologiya İdarəsindən aldığımız məlumata görə, Naxçıvan şəhərində qarın qalınlığı 10, Şahbuz rayonunun ucqar dağ kəndi olan Küküdə 62, 3000 metr yüksəklikdəki ərazilərdə 72 santimetrdir.

✍ **Səbuhi HÜSEYNOV**

## Elmi-praktik seminar



***Yanvarın 26-da Naxçıvan Muxtar Respublika Xəstəxanasında hepatit viruslarına qarşı mübarizə və profilaktika tədbirlərinin gücləndirilməsi barədə elmi-praktik seminar keçirilib.***

Xəstəxananın baş həkimi Əli Ələsgərov bildirib ki, hepatit (A, B, C, D, E) virusları kəskin xroniki xəstəliklər törədərək insanların sağlamlığında ciddi pozuntulara səbəb ola bilər. Hepatitə yoluxmuş insanların çox böyük əksəriyyəti bundan xəbərsiz olur. Yalnız hepatitin müxtəlif formaları, onların qarşısının alınması və müalicəsi yolları barədə maarifləndirməni genişləndirməklə insan həyatını belə xəstəliklərdən xilas edə bilərik.

Muxtar respublikada hepatit viruslarına yoluxmuş xəstələrdə diaqnozun qoyulması, onların qeydiyyatının aparılması, dərman preparatları ilə təmin edilməsi və müalicələrinin təkmilləşdirilməsi məqsədilə ardıcıl tədbirlər görülür, nikaha daxil olmaq istəyən şəxslər hepatit B, hepatit C, o cümlədən QİÇS üzrə tibbi müayinədən keçirlər. Evlilik öncəsi məcburi tibbi müayinələrin tərkib hissəsi olan hepatitlərə görə müayinələr Naxçıvan Muxtar Respublika Xəstəxanasının Hematologiya şöbəsində aparılır. Nikaha daxil olmaq istəyən şəxslərə tibbi arayışların verilməsi müayinələrin nəticələri təqdim edildikdən sonra həyata keçirilir. Bunun üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Yoluxucu Xəstəliklər Mərkəzində, Doğum Mərkəzində lazımi maddi-texniki baza yaradılıb.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasının Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin həkimi Nuray Əliyevanın "Hepatit B xəstəliyi", Cərrahiyyə şöbəsinin həkim-rezidenti Həbib Məmmədovun "Hepatit C xəstəliyi" mövzularında məruzələri dinlənilib. Məruzələr videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, müzakirələr aparılıb, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

Xəstəxananın həkim-travmatoloqu, tibb üzrə fəlsəfə doktoru, dosent Adil Məmmədov tədbirə yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Muzey bələdçiləri üçün seminar-treninqlər davam etdirilir



***Muxtar respublikamızın muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsi davam etdirilir. Növbəti belə tədbirin ünvanı "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi olub.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqdə nazirliyin Mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edib.

Qeyd olunub ki, ötən ildən başlayaraq muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsində əsas məqsəd muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir. Keçirilən seminar-treninqlər muzey bələdçiləri üçün faydalı olub, muzey bələdçiləri vəzifə funksiyalarını dərindən öyrənməyə səy göstərməklə yanaşı, muzey işi haqqında ətraflı məlumat alıblar.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Bu gün muzeylərimizdə hazırlıqlı, bilikli, xarici dilləri bilən, işlədiyi mədəniyyət ocağı haqqında ətraflı məlumata malik bələdçilərə ehtiyac çoxdur.

Diqqətə çatdırılıb ki, muzey bələdçiləri müxtəlif səviyyəli insanlarla, məktəbli və tələbələrlə, yaşlı nəsillə işləməyi bacarmalı, nəzakət və davranış qaydaları ilə muzeyə gələnlərdə xoş təəssürat yaratmalıdırlar. Muzey bələdçiləri hər bir vətəndaşa qarşı diqqət göstərməli, muzey işi və muxtar respublikada gedən yeniliklərdən xəbərdar olmalı, onların suallarını diqqətlə dinləyib elmi əsaslarla cavablandırmalıdırlar. Bu gün muxtar respublikamıza gələn turistlərə qədim diyarımız haqqında ətraflı məlumat vermək üçün muzey bələdçisi daim öz üzərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməlidir.

Sonra "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində muzey bələdçisinin təqdimatında ekspozisiyaya baxış olub və ekskursiya mətni müzakirə edilib, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

**Əli RZAYEV**

***Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 2016-cı ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı iclası keçirilib.***

## İdman federasiyalarında ötən ilin yekunları müzakirə edilib

Tədbiri giriş sözü ilə açan federasiyanın sədr müavini Faiq İsgəndərov bildirib ki, 2016-cı ildə Güləş Federasiyası tərəfindən muxtar respublika, şəhər (rayon) birincilikləri və çempionatlar təşkil olunub, yeniyetmə və gənclərin bu növə cəlb edilməsi üçün müəyyən işlər görülüb. Bunun nəticəsidir ki, bu gün muxtar respublika üzrə 111 qrupda 1437 idmançı güləşin sirlərini öyrənir. Federasiyanın idmançıları bəhs olunan dövrdə 6 beynəlxalq, 2 respublika səviyyəli turnirdə, 6 Azərbaycan, 3 Naxçıvan Muxtar Respublika birinciliklərində, əlamətdar və tarixi günlərlə əlaqədar keçirilən 12 daxili birincilikdə iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının məşqçi-müəllimi Hikmət Hüseynov gələcəkdə keçiriləcək tədbirlər, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi



Aparatının rəhbəri Canməmməd Canməmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilmiş müşavirədə verilmiş tapşırıqlar haqqında tədbir iştirakçılarına məlumat veriblər.

* * *



***Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasında da ötən ilin yekunları və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.***

2016-cı ildə görülən işlər barədə danışan federasiyanın sədr müavini Nəriman Quliyev bildirib ki, karate-do idman növünün inkişafı üçün muxtar respublikanın şəhər və rayonlarında lazımi şərait yaradılıb, 5 yeni bölmə fəaliyyətə başlayıb. Bu gün muxtar respublikada federasiyanın 19 bölməsi var və burada 12 məşqçi-müəllim çalışır. Ötən il muxtar respublika daxilində 26 tədbir təşkil olunub və mindən çox idmançı mübarizə aparıb. Karate idman növü ilə bu gün 500-dən çox uşaq, yeniyetmə və gənc məşğul olur ki, onların da 60-ı qız idmançıdır. Yetirmələrimiz 2016-cı ildə ölkədaxili və beynəlxalq turnirlərdə 35 müxtəlif əyarlı medal qazanıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının rəhbəri Canməmməd Canməmmədov çıxışında bu il nazirliklə federasiyanın birgə təşkil edəcəyi yarışlar, tədbirlər barədə danışıb.

## Voleybolçularımız cari ildə yüksək nəticələrə nail olacaqlar

### *Voleybol komandamızın yeni baş məşqçisi bu fikirdədir*



Voleybol üzrə Azərbaycan çempionatının yüksək liqasında mübarizə aparan "Naxçıvan" komandası üçüncü dövrənin hazırlıqlarını davam etdirir. Məlumat üçün bildirək ki, bundan sonra "Naxçıvan" komandasını çempionat oyunlarına və digər qarşılaşmalara rusiyalı baş məşqçi Aleksandr Çornı çıxaracaq. 55 yaşlı baş məşqçinin zəngin idman karyerası var. 1961-ci ildə anadan olan Çornı idmançı kimi uzun müddət Moskva şəhərində fəaliyyət göstərən Mərkəzi Ordu İdman Klubunun şərəfini qoruyub, bu klubda 10 qat SSRİ çempionu, 4 qat SSRİ Kubokunun, 6 qat Avropa Çempionları Kubokunun sahibi, böyüklər arasında Avropa çempionu adını qazanıb. 1979-cu ildə SSRİ yığmasının heyətində gənclər arasında Avropa, iki il sonra isə dünya çempionu olub.

Oyunçu karyerasını bitirəndən sonra o, məşqçilik işinə başlayıb. Çornı 1995-ci ilə qədər Mərkəzi Ordu İdman Klubunun ikinci klubunun, bir il İtaliya A seriyasında "Padova"nın, 1996-2008 və 2009-2011-ci illərdə Novokuybışevskinin "Oktan" klubunun baş məşqçisi olub.

Baş məşqçi bizimlə söhbətində hədəfləri barədə danışdı: "Hədəfimiz Azərbaycan çempionatında uğurlu çıxış etmək və yüksək yerə sahib olmaqdır. Bunun üçün ciddi hazırlaşmalı və məşqlərə ara verməməliyik. "Naxçıvan" komandası ilə ilk məşqlərdə uşaqların istedadlı olduğunu gördüm. Bu da daha bir məqsədimizə çatmağa – Naxçıvanda voleybolu inkişaf etdirməyə və istedadlı uşaqları yığmaya cəlb etməyə imkan verəcək. İnanıram ki, komanda ilə böyük uğurlara imza atacağıq".

Qeyd edək ki, "Naxçıvan" komandasına baş məşqçi ilə yanaşı, daha iki voleybolçu da qoşulub.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, "Qoçüstü" məhəlləsi, bina 4, mənzil 56-da yaşayan Həsənov Qadir Adil oğlunun adına olan evin 8754 inventar nömrəli texniki pasportu və 31887 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 75